Milli-mənəvi dəyərlərimiz

Dövlətçiliyimiz və dinimiz xalqımızın güc simvoludur

Hər bir insanın həyatda yaşadığı dövrdə bir çox azadlıqları var. İnsan bəşəriyyətin ən ali varlığıdır. Şüuru, əqidəsi, vicdanı azadlıqlarla bərabər yaşadığı həyat tərzini insani baxımdan tarazlaşdıran azadlıqlar da var.

Azərbaycanda qadın hüquqları tarixi, hüquqi və sosial aspektdən tənzimlənir. Ölkə müsəlman şərqində və Türk dünyasında qadına seçmək və seçilmək hüququ verən ilk dövlətlərdəndir. Tarixi və hüquqi əsaslara nəzər salaq:

1918-ci il:Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk dəfə qadınlara seçki hüququ verildi. 1975-ci il konstitusiyası, 25-ci maddə ilə qadınların kişilərlə bərabər hüquq və azadlıqlarını təsbit etdi. Həmin il BMT-nin qadınlara qarşı ayrıseçkiliyin ləğvi konvensiyası ratifikasiya olundu. 2006-cı ildə "Gender bərabərliyinin təmin edilməsi haqqında" qanun qəbul olundu. 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun qəbul edildi. Həmçinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı.

Azərbaycan qadını-ölkənin tarixi, mədəniyyəti və ictimai-siyasi həyatında mühüm rol oynamış, milli-mənəvi dəyərlərin və ailə ənənələrinin qoruyucusu kimi tanınan zəngin bir anlayışdır. Tariximiz Tomris, Həcər, Tuti Bikə, Nüşabə, Sara xatun Mömine xatun, Nigar kimi güclü və mübariz qadın simaları ilə zəngindir.

Müasir dövrümüzdə qadınların ictimai-siyasi və mədəni fəallığı daha da artmışdır. Qadınlar, dövlət idarəçiliyində, elmdə, təhsildə, iqtisadiyyatda və mədəniyyətdə aktiv iştirak edirlər.

Azərbaycan qadınının ən böyük adı ana, bacı, ömür-gün yoldaşıdır. Qadınlarımız cəmiyyətdə vətənpərvər övlad yetişdirməkdə böyük rola malikdir. Vətən müharibəsində qazandığımız qələbə bunu bir daha təsdiq etdi.

Azərbaycan qadını inanclarında da azad və sərbəst olmuşdur. Əqidə və vicdan azadlığı qadınlarımızda milli-mənəvi dəyərlərin formalaşmasında müstəsna rol oynayır. İnsani keyfiyyətlər məhz milli-mənəvi dəyərlərin zənginliyində öz əksini daha bariz şəkildə tapır.

Dövlətimiz dini dövlət olmasa da, din xalqın mənəviyyatında dərin iz salan bir zənginlikdir. İslam dininin əsası, "Qanun toplusu" sandığımız Qurani-Kərimin ayə və surələri xalqın milli-mənəvi dəyərlərinin, zəngin bir irsin formalaşmasında müstəsna rolu vardır.

Allah sevgisi hər kəsin ruhunda, qəlbində, əxlaqında olmalıdır. Allahı sevən hər kəs onun hümmətlərinə də sevgi ilə yanaşmalıdır. Dininə hörmət və sevgisi olanlar din pərdəsi altında xalqın övladlarını zülm və istismara təhrik etməməli, dövlətçiliyimizi qorumağa çalışmalıdır.

Dinin rəmzi saqqal, cübbə və hicab deyil, əxlaq, ədalət və elmdir. Əxlaq davranışla, əməllə, tərbiyə ilə, hərəkətlərlə müəyyənləşdirilməlidir. Dini inanc inancın konkret formasıdır ki, burada mövqe bilinir. İnanc olmadan insanın yaşaması mümkün deyil. Din sözünün mənası təftişdir; yəni insanın daxili dünyasının hesabatının təftişidir. İnsan öz-özünə hesabat verir ki, həqiqətən də yaradana inanır, ya yox. Din insanın əməllərinin hesabıdır. Məhz buna görə də, insan əməllərinə öz daxili "Məni" ilə həmişə düzgün istiqamət verməlidir ki, sabahkı həyat tərzində "kaşki"lərlə üzləşməsin.

Bu gün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin verdiyi qərara əsasən məktəblərdə vahid məktəbli formasına keçilməlidir. Bu dünyəvilik prinsipi və vahid məktəbli formalarından əlavə geyim formalarından istifadəyə yol

(Ardı 6-cı səhifədə).

Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilmişdir



Qəbələ rayonu üzrə təhsil sektorunun və ETİHİ-nin Qəbələ Rayon Komitəsinin birgə təşkilatçılığı ilə 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilmişdir. Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri qoyaraq, əziz xatirəsini ehtiramla yad etmişlər. Qəbələ şəhər 5 nömrəli tam orta ümumtəhsil məktəbində davam edən tədbir Azərbaycan Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin, şəhidlərin və dünyasını dəyişmiş təhsil işçilərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. Çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova müəllimləri peşə bayramları münasibətilə təbrik etmiş, təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, bu gün isə ölkə Prezidenti İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirilən təhsil strategiyasının ardıcıl və davamlı inkişafından danışmış, müəllimlərə bu şərəfli işlərində uğurlar arzulamışdır. Şəki - Zaqatala Regional Təhsil İdarəsinin Qəbələ rayonu üzrə təhsil sektorunun müdiri Arifə Bayramova çıxışında müəllim peşəsinin yüksək dəyərlərindən, cəmiyyətin inkişafında müəllimlərin əvəzsiz rolundan danışmış və onlara peşə fəaliyyətlərində uğurlar arzulamışdır. Tədbirdə çıxış edən müəllimlər dövlətimiz tərəfindən müəllimlərə göstərilən qayğıya, təhsilin inkişafı üçün həyata keçirilən tədbirlərə görə dövlət başçısına minnətdarlıqlarını bildirmişlər. Tədbirdə bir qrup müəllimə təhsilin inkişafındakı xidmətlərinə, gənc nəslin təlim-tərbiyəsi sahəsində yüksək nailiyyətlər əldə etdiklərinə görə və 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə Qəbələ Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanları və ETİHİ-nin Qəbələ Rayon Komitəsinin Təşəkkürnamə və hədiyyələri təqdim olunmuşdur. Tədbir şagirdlərin ifasında müəllim peşəsinə həsr edilmiş ədəbi-bədii kompozisiyalar və musiqi nömrələri ilə davam etmişdir.

Maarifləndirici görüş



Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində 1 Oktyabr - Beynəlxalq Ahıllar Günü ilə əlaqədar "Dəyərlərimizi ötürək" mövzusunda maarifləndirici görüş keçirilib. Tədbirdə çıxış edənlər ahıllara diqqət və qayğının göstərilməsi, onların həyat təcrübəsinin və mənəvi irsinin gələcək nəsillərə ötürülməsi, ailədə və cəmiyyətdə yaşlı insanlara hörmətin qorunmasının əhəmiyyətini vurğulamış, nəsillər arasında qarşılıqlı anlaşmanın və ailə bağlarının möhkəmləndirilməsinin sağlam mənəvi mühitin formalaşmasında mühüm rol oynadığını bildirmişlər. Görüş diskussiya şəklində davam edib.

15 oktyabr - yerli mətbuatımızın 93 illiyi

Sözün qüdrəti, yurdun səsi

Mətbuat cəmiyyətin inkişafında, sosial və siyasi proseslərdə mühüm funksiyalar yerinə yetirən əsas institutlardan biridir.

İnformasiya vermək: İnsanları ölkədə və dünyada baş verən hadisələr, yeniliklər barədə operativ şəkildə məlumatlandırır.

Hər bir yurdun öz səsi, hər bir torpağın öz salnaməsi var. İllərin süzgəcindən keçən, zamanın qızıl hərflərlə yazdığı elmi, tarixi həqiqətlər kimi, mətbuat səhifələri də doğma yurdun nəbzidir, ürək döyüntüsüdür. Ucqar dağların əhatəsində, yaşıllıqlar qoynunda yuva quran qədim Qəbələnin də illərdir səngiməyən bir nəfəsi, hər səhər evlərə, ocaqlara sevinc və yenilik daşıyan etibarlı bir carçısı var - "Qəbələ" qəzeti.

Bu mətbuat ocağının özülünün qoyulduğu tarix sadəcə təqvimdəki bir rəqəm deyil; o, dağlar diyarı Qəbələnin intibahının, maarifçilik yolunda atılan inamlı addımların başlanğıcıdır.



Ötən əsrin səhifələrindən bəri-dəqiq desək, 1933-cü ilin payızında-işıq üzü görən bu qəzet ilk nömrəsindən etibarən rayonun güzgüsünə çevrildi.

Yarandığı gündən etibarən zamanın tələblərinə və ictimai-siyasi dəyişikliklərə uyğun olaraq qəzet bir neçə dəfə adını dəyişmiş, lakin missiyasına sadiq qalmışdır:

"Bolşevik mübarizi" dövrü (1933-cü ildən etibarən): qəzet ilk nömrəsini məhz bu adla işıq üzünə çıxardı. İlk illərdə əsas diqqət bölgədə kənd təsərrüfatının qurulması, əmək intizamı və ilkin marifləndirmə təbliğatına yönəlmişdi.

"Mübariz" və "Yeni həyat" mərhələləri: müxtəlif illərdə cəmiyyətin qarşısında duran tarixi çağırışlara uyğun olaraq qəzet öz adını dəyişərək "Mübariz", daha sonra isə "Yeni həyat" adı ilə fəaliyyətini davam etdirdi. Bu mərhələlərdə qəzet səhifələrində yerli sakinlərin əmək qəhrəmanlıqları, kəndlərin simasının dəyişməsi mühüm yer tutdu.

"Qalibiyyət" və "Qəbələ" adı: növbəti onilliklərdə rayonun adı ilə uzlaşan "Qalibiyyət", daha sonra isə rayonun tarixi adının bərpasından sonra birbaşa "Qəbələ" adı ilə nəşrini sürdürməkdə davam etdi.

"Qəbələ" qəzeti 10 sentyabr 2025-ci ildən etibarən artıq "Qəbələ səsi" adı ilə nəşrini davam etdirir.

Ağsaqqalların müdrik kəlamları, gənclərin alovlu arzuları və qəhrəman şəhidlərin unudulmaz xatirəsi bu qəzetin səhifələrində əbədiləşir.

Qoy bu səs heç vaxt susmasın! Qoy Qəbələnin dağlarından, aranından yüksələn bu doğma hərarət hər bir ocağa işıq saçsın, tarixin yaddaşına yeni və parlaq səhifələr yazmaqla davam etsin!

İlahə EYVAZLI.